Bakı Slavyan Universitetinin

ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2019-№2 | Серия общественно-политических наук

**Hümbətova Ayna Abuş qızı**
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*abusova_a@mail.ru*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN KOQNİTİV İNKİŞAFINDA MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *münasibət, müəllim, şagird, koqnitiv inkişaf, emosiya.*
***Key words:*** *attitude, teacher, student, cognitive development, emotion.*
***Ключевое слова****: отношение, учитель, ученик, когнитивное развитие, эмоции.*

Müasir dövrdə insanın bir şəxsiyyət kimi təşəkkülünü təmin-tərbiyə prosesindən kənarda təsəvvür etmək çətindir. Məhz bu iki prosesin nəticəsində uşaq həm yeni bilik, bacarıq və vərdişlərə yiyələnir, həm də sosial dəyərləri, rolları, normaları mənimsəyir. Uşağın hansı potensiala sahib olaraq doğulmasından asılı olmayaraq, onun üçün zəruri olan intellektual davranış vərdişləri sosial mühitlə münasibətlərdə inkişaf edib təkmilləşə bilir. Həyatın ilk anlarından uşağın intellektual funksiyaları yalnız irsiyyətlə şərtlənirsə də, bu hal tezliklə dəyişir. Bir müddətdən sonra uşaq öz fiziki və sosial əhatəsi ilə qarşılıqlı davranış qabiliyyətləri qazanır. Həyatda uğur qazanmaq üçün şagirdlərdə həyati bacarıqları inkişaf etdirmək, onları dəyişən həyat şəraitinə uyğunlaşdırmaq təlimin, dəyərlər sisteminə malik bir şəxsiyyət kimi formalaşdırmaq isə tərbiyənin qarşısında duran əsas vəzifələrdir. Lakin yaddan çıxartmaq olmaz ki, bu iki prosesi bir-birindən təcrid etmək mümkün deyil. Onlar qarşılıqlı əlaqədə mövcuddur. Bu zaman təlim subyektlərindən müəllimin fəallığı şagirdlərin psixoloji və fərdi xüsusiyyətlərini yaxşı bilməklə təlim prosesini düzgün təşkil etməkdə, şagirdin fəallığı isə öyrənmə prosesində təşəbbüslər göstərməkdə, araşdırmalar aparmaqda özünü göstərir.

Təlim mühitində şagirdlər arasında şəxsiyyətlərarası münasibətlər kiçikyaşlı məktəbli dövründən formalaşmağa başlayır. Daha sonra müsbət emosional münasibətlər qarşılıqlı əlaqələrin əsas tipi kimi formalaşır və inkişaf edir. İstər şəxsiyyət kimi formalaşmanı, istərsə də təlimin keyfiyyətinin yüksəlməsini şərtləndirən

emosional münasibətlər məhz kollektivdə şagirdin emosional münasibətlərinin harmonik inkişafını təmin edir.

Həyatda istənilən münasibət fizikadakı "Birləşmiş qablar qanunu - nu xatırladır. Birləşmiş qabı ailə və ya sinif mühiti fərz etsək, münasibətlər bu qabdakı mayelərin hündürlüyü ilə xarakterizə olunur. Ailədə xoş, səmimi münasibət üçün valideynlər ilə uşaq arasında əlaqə kanalları açıq olmalıdır. Bu birləşmiş qablarda eyni cinsli mayelərin eyni hündürlükdə durmasına oxşayır. Ailə üzvlərinin qarşılıqlı fəallığı, canlı ünsiyyəti hər kəsin tələbatlarını ödəmək üçün faydalı olur. Əks halda isə ailənin bəzi üzvlərinin xoşbəxtliyi yüksək olduğu halda, digər üzvünün həyat sevincinin olmamasına səbəb olur. Adətən ikinci tərəf uşaqlar hesab olunur. Gərgin münasibətlər özündə müxtəlif cinsli mayelerin göstərdiyi fərqli hündürlükləri ehtiva edir. Ailədə xoşbəxtlikdən „ortaq istifadə“ bütün ailə üzvlərinin ümumi daşıyacağı bir məsuliyyətdir. Məktəbəqədər və kiçikyaşlı məktəbli dövrünə gəldikdə isə bu prosesə müəllim və tərbiyəçilər də daxil olur. Qanunauyğuluğu sinif mühitinə də şamil etmək olar.

Tədqiqatlar göstərir ki, müəllimin müsbət emosional münasibəti şagirdin təlim prosesində müvəffəqiyyət qazanmasına böyük təsir göstərir. Çünki pedaqoji ünsiyyət prosesində emosional münasibətlərin mahiyyəti daha dəqiq desək, müəllim-şagird münasibətinin xarakteri önə çıxır. Müəllim-şagird münasibətinin emosional xarakteri özündə aşağıdakıları təzahür etdirir: 1) rəğbətləndirici münasibətdə şagirdə verilən diqqət və qayğı yüksək emosionallıqla ifadə olunur. Qiymətləndirmədə şagirdin təriflənmə tələbatı tam ödənir. 2) formal emosional münasibətdə şagirdə verilən diqqət və qayğıda rəhbərlik və idarəetmədə fonu müşayiət edilir. Emosional tələbatın ödənməməsi, eyni zamanda mənfi qiymətləndirmə müşahidə olunur. 3) məntiqsiz emosional münasibətdə müəllim-şagird arasında qərarsızlıqla yanaşı, qarışıq qiymətləndirmə üslubuna üstünlük verilir. Mütəxəssislərin fikrincə, müəllim-şagird münasibətində müəllim şəxsiyyətinin rəngarəngliyi şagirdin psixi inkişafında böyük əhəmiyyət kəsb edir. Bu münasibət onun kiçik bədənində böyük ruhu inkişaf etdirir. Nəticədə şagird üçün özünügerçəkləşdirmə imkanı yaranır. A.Maslou qeyd edir ki, özünügerçəkləşdirmə - potensial imkanların, qabiliyyət və istedadın bir-birini daim əvəz edən xaotik reallaşma prosesidir. Fikrimizcə, özünügerçəkləşdirmə eyni zamanda şəxsin emosional fonda baş verən bütün münasibətlərinin gerçəkləşməsidir. Çünki hər bir insan öz daxili potensialına uyğun öz reallığını gerçəkləşdirir.

1991 ci ildə Penn və Duke Dövlət Universitetinin tədqiqatçıları Damon Cones, Mark Qrinberq və Maks Crovle uşağın sosial bacarıqları ilə yetkinlik dövründəki nailiyyət səviyyələri arasındakı əlaqəni araşdırıblar [3]. Bu məqsədlə 20 il ərzində 800 uşaq tədqiqata cəlb olunub. Tədqiqat zamanı uşaqların sosial intellekt bacarıqları 4 meyar üzrə qiymətləndirilib: 1) başqalarını dinləmək; 2) hər şeyi dostlarla bölüşmək; 3) dostlarla problemlərini həll etmək; 4) dostlara kömək et-

mək. Hər uşaq minimum 0, maksimum 4 balla qiymətləndirilib. 20 il sonra tədqiqatçılar bu uşaqların sosial zəka balları arasında paralelliyin olmasını araşdırıblar.

- Uşaq bağçalarında sosial bacarıqların qiymətləndirilməsində uşağın aldığı hər +1 ali təhsil alma ehtimalını 2 dəfə artırdı. 25 yaşına qədər bu qrupun eyni işdə olma nisbəti 46% daha yüksəkdir.

- uşaq bağçasındakı sosial bacarıqların qiymətləndirilməsində uşağın aldığı hər - 1 bal, yetkinlikdə cinayətə cəlb olunma səviyyəsini 67% artmışdır. Eyni şəkildə, alkoqolizm nisbəti 52%, dövlət yardımı ilə yaşama göstəricisi isə 82% daha çoxdur. Beləliklə, uşağın sosial intellekt bacarığı onun gələcək müvəffəqiyyətinin vacib göstəricisidir.

Göründüyü kimi fəaliyyət və ünsiyyət prosesində formalaşan qarşılıqlı münasibətlər şəxsi təcrübə sistemini müəyyən edir. A.V.Morozovun fikrincə, bu sistemdə əks olunan davranış modeli birgə fəaliyyətin uğurunun xarakterini müəyyən edir [2]. Bu məqsədlə müəllimlərin dərsdə hansı pedaqoji ünsiyyət modelindən istifadə etdikləri araşdırılıb. Apardığımız tədqiqat zamanı müəllimlərin dərs zamanı fərqləndirici diqqət (Lokator) və dəyişməyən reaksiya (Robot) davranış modellərinə üstünlük verdikləri müəyyən olunub. Seçilən modellər arasında Fəal qarşılıqlı təsir və Hamlet modeli də vardır. Üstünlük verilən Robot modelində müəllimlər üçün şəraitin dəyişməsinə baxmayaraq ünsiyyəti planlaşdırdıqları şəkildə aparmaq daha səciyyəvidir. Lokator modelində isə yalnız qabiliyyətli və ya zəif şagirdlərə diqqət yetirən müəllim sinifdə ancaq müəyyən qrup şagirdlə işləyir. Fərdi yanaşma ancaq müəllimin seçdiyi müəyyən uşaqlar üçün şamil edilir. Bu da müəllim-şagird kollektivində qarşılıqlı təsir əlaqəsinin pozulmasına səbəb olur. Birlik modelində sinifdə sağlam psixoloji mühit hökm sürür. Qarşıya çıxan problemlər müəllim-şagird birliyinin gücü ilə yaradıcı şəkildə həll olunur. Hamlet modelində müəllimi qarşılıqlı təsirin məzmunundan daha çox, şagirdlərin onu necə qəbul etməsi maraqlandırır. Bu zaman isə müəllimin sosial-psixoloji həssaslığı kəskinləşir.




***Diaqram 1. Pedaqoji staja görə davranış modelləri paylanması***

Diaqram 1-dən göründüyü kimi pedaqoji stajın artması nəticəsində müəllimlər daha kontrollu-planlı davranış modelinə üstünlük verirlər. Məsələn,

stajı 19 ildən yuxarı olan müəllimlərin seçdikləri davranış modelləri Dəyişməyən reaksiya modeli Robot və Fərqləndirici diqqət modeli **olan** Lokator olduğu halda, pedaqoji staji 1-8 il olan müəllimlərdə fəal qarşılıqlı təsir modelinə daha çox rast gəlinir. Robot modeli bu staj qrupu üçün ümumiyyətlə səciyyəvi deyil.

Tədqiqatın növbəti mərhələsində müəllimlərin motivasiya, şəxsi ustanovka və yaradıcılıq potensiallarının pedaqoji staja görə dəyələndirilməsi aparılıb. Diaqram 2-dən göründüyü kimi motivasiya və yaradıcılıq potensialı pedaqoji staj ilə tərs mütənasibdir. Motivasiyanın staj artdıqca azalması obyektiv və subyektiv səbəblərdən qaynaqlana bilər.




***Diaqram 2. Pedaqoji staja görə yaradıcılıq potensialı və motivasiyanın tədqiqi***

Müəllimin öz peşəsini sevməməsi, məktəbdə sağlam rəqabətin olmaması və s. onun istər bir şəxsiyyət kimi, istərsə də mütəxəssis kimi fəaliyyətinin müvəffəqiyyətini aşağı salır. Müəllim motivasiyasının aşağı olması istər-istəməz onun şagirdlərinə, keçdiyi dərsin keyfiyyətinə öz mənfi təsirini göstərəcək.

Müəllimin tərəfindən istifadə olunan motivasiya ifadələrinin şagird müvəffəqiyyətinə təsirini araşdıran Texas Universitetinin professoru David Yeqer maraqlı bir tədqiqat aparıb. Müəllimlərə şagirdlərin tədqiqat aparacağı qeyd kitabçasına öncədən rəy bildirmələrini təklif edilib. Bir qrup müəllim rəyə heç bir həvəsləndirici cümlə yazmayıb. Digər qrup isə “Uğur qazana biləcəyinizə inanıram” cümləsini qeyd edib. Müəllimlər hansı şagirdə hansı vərəqin verildiyini bilmirlər. Nəticədə birinci qrup 40%, ikinci qrup isə 80% yüksək nəticə göstərmiş. Göründüyü kimi motivasiya insanın sahib olduğu, amma o anda görmədiyi gücləri xatırlatmaqdır. Uşağı doğru məqsəd üçün, doğru zamanda, doğru şəkildə və doğru həddə motivasiya etmək müəllim peşəsində mühüm əhəmiyyət kəsb edir [3]. Yaradıcılıq potensialının azalma səbəbi kimi müəllim fəaliyyətinin rutin xarakter daşıması göstərilir. İnsanın eyni bir işi mütəmadi görməsi bu işə olan yaradıcı müna-

sibətini zəiflədir. Dərsə yaradıcı yanaşmayan müəllimin şagirdindən isə yaradıcılıq gözləmək nə dərəcədə düzgündür?! Cəmiyyət əldə etdiyi bilik, düşüncə, baxış və davranışları təhsil vasitəsi ilə gələcək nəslə ötürür. Bizim məktəbin tələbləri isə şagirdin sakit halda oturması, çətinliklə hecalaması, nümunələr üzrə səliqəli yazı yazması, maraqlı olmayan bir çox şeyi yadda saxlamasıdır. Müəllim şagirdə tez bir zamanda oxuyub-yazmağı, riyazi hesablamağı öyrətməklə işini bitirmiş hesab edir. Ona görə də təlim prosesinə başlayanda uşaqların təxəyyülünün inkişafını zəifləyir. Göründüyü kimi verdiyimiz təhsil, yaşadığımız həyat tərzi stereotip düşüncə tərzini formalaşdırır.

Şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini, ailə və sosial çevrəsini nəzərə alaraq müəllim hamıya eyni prizmadan deyil, hər kəsə fərdi yanaşmağı bacarmalıdır. Müəllim şagirdlərlə münasibətdə aşağıdakıları diqqət mərkəzində saxlamalıdır:

- Şagirdlərə qarşı diqqətli və mərhəmətli olub, ünsiyyət yaratmağı bacarmalıdır.
- Təkcə dərsdən deyil, ümumi maraq dairəsini müəyyən edərək bu istiqamətdə söhbətlər aparılmalıdır.
- Aktiv və yaxşı dinləyici olmalı, sözlərə qarşı səmimi reaksiya göstərməlidir.
- Dinləyərkən şagirdlərin söhbətlərinə həqiqi maraq göstərməlidir.

Göründüyü kimi burada məsələ şagirdin sadəcə olaraq subyekt kimi deyil, mütləq və mütləq fəal subyekt kimi qəbul edilməsindədir. Çünki yalnız bu halda onun motivasiya, emosiya, iradi və idraki potensialını səmərəli şəkildə təlim fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə yönəltmək mümkündür.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Əlizadə H.Ə., Əlizadə S.H, Psixopedaqogika. Bakı: Ecoprint, 2019, 368 s.
1. Seyidov S.İ. Psixologiya Bakı 2007 624 s.
2. M.Sekman, B.Eriş Çocuklar nasıl başarır? ALFA basım Yayım Dağıtaın San. Ve Tic.Ltd.Şti. 2017, 291 s.



**Гумбатова Айна Абуш гызы**


**Психологические аспекты взаимоотношений учителя и ученика в когнитивном развитии младших школьников**

**РЕЗЮМЕ**


В данной статье рассматривается повышение эмоциональности школьников в младших классах. Для того, чтобы содержание было более практичным в процессе обучения. Так как чувства и волнения, которые школьники младших классов извлекают от урока, оказывают значительное влияние как на их учебные мотивы, так и на их академические достижения. Без эмоционального и социального развития когнитивное развитие не имеет значения.

**Humbatova  Ayna Abush**

**Psychological aspects of teacher-student relations in cognitive development of younger schoolchildren**

**SUMMARY**

This article discusses how to increase the emotionality of primary pupil to make the content more practical and practical in the learning process. Because the feelings and excitement that primary schoolchildren have learned from the lesson have a significant impact on both their educational motives and academic achievement. Without emotional and social development, cognitive development does not matter.

*Rəyçi: prof. E.B.Bəylərov*